# KORRUPSİYA VÄ MÜTÄŞÄKKİL CİNAYÄTKARLIQ ARASINDA ÄLAQÄ

Avropa Şurası Korrupsiyaya vä Mütäşäkkil Cinayätkarlığa Qarşı Mübarizä Avropa Ädliyyä Nazirlärinin 21-ci Konfransı, 10-11 iyul 1997-ci il, PRAQA

AVROPA ÄDLİYÄ NAZİRLİYİNİN 21-ci KONFRANSININ NÄZÄRİNÄ KORRUPSİYA ÜZRÄ ÇOXSAHÄLİ QRUPUN (GMC) İŞİ HAQQINDA DÖVRİ HESABAT, PRAQA 10-11 İYUN 1997-ci İL

## Maltadakı Konfrans

Avropa Nazirlärinin 19-cu Konfransında (Valetta, 1994-cü il) iştirak edän Nazirlär hesab edirdilär ki, korrupsiya demokratiya, hüquq normaları vä insan hüquqları üçün ciddi tählükädir vä görkämli Avropa täşkilatı olan, bu fundamental däyärläri müdafiä edän Avropa Şurası bu tählükäyä cavab vermäyä borcludur.

Nazirlär ämin olduqlarını bildirmişlär ki, korrupsiyaya qarşı mübarizä çoxtäräfli yanaşma äsasında olmalıdır vä mümkün qädär tez bu sahädä müvafiq qanunvericilik qäbul etmäk vacibdir. Onlar inamla bildirmişlär ki, korrupsiyayaqarşı käsärli mübarizä Avropa vä qeyri-Avropa säviyyäsindä uzlaşdırılmış tädbirlär vasitäsilä häm dövlätlär arasında, häm dä dövlätlär vä beynälxalq täşkilatlar arasında beynälxalq ämäkdaşlığı genişländirmäyi täläb edir, bu da öz növbäsindä Avropa Şurasının üzvü olmayan ölkälärin bu işä cälb olunmasını näzärä tutur.

Ädliyyä Nazirläri Cinayätkarlıq Problemläri üzrä Avropa Komitäsi (CDPC) vä Hüquqi Ämäkdaşlıq üzrä Avropa Komitäsinin (CDCJ) sälahiyyätläri daxilindä beynälxalq säviyyädä fäaliyyät proqramına daxil edilä bilän tädbirläri, eläcä dä bu mövzuya aid olan beynälxalq sazişläri daxil etmäklä nümunävi qanunların vä äxlaq kodekslärin layişälärinin tärtibi imkanlarının tädqiqi ilä mäşğul olmalı olan Korrupsiya üzrä Çoxsahäli Qrupu (GMC) yaratmağı Nazirlär Komitäsinä tövsiyyä etmişlär. Nazirlär belä sänädlärin mäzmununda olan väzifälärin yerinä

yetirilmäsinä dair näzarät mexanizminin işlänilmäsinin vacibliyini xüsusilä qeyd etmişlär.

## Korrupsiya üzrä Çoxsahäli Qrupun (GMC) yaradılması

Bu tövsiyäläri näzärä alaraq Nazirlär Komitäsi 1994-cü ilin sentyabrında Cinayätkarlıq Problemläri üzrä Avropa Komitäsi (CDPC) vä Hüquqi Ämäkdaşlıq üzrä Avropa Komitäsinin (CDCJ) birgä himayäsi ilä Korrupsiya üzrä Çoxsahäli Qrupu (GMC) yaratdı vä beynälxalq säviyyädä korrupsiyaya qarşı fäaliyyät proqramına hansı tädbirlärin daxil edilä biläcäyinin tädqiqini tapşırdı. Korrupsiya üzrä Çoxsahäli Qrup (GMC) hämçinin 1995-ci ilin sonuna qädär Nazirlär Komitäsinä başqa beynälxalq täşkilatların işini näzärä alaraq müvafiq prioritetlär vä işçi strukturları üzrä öz täklifläri̇ni täqdim etmäli idi. Bundan başqa ona hävalä olunmuşdur ki, bu mövzu üzrä beynälxalq konvensiyanın härtäräfli işlänmäsini, eläcä dä bu sänädlärdä qeyd olunan väzifälärin yerinä yetirilmäsinä dair näzarät mexanizminin işlänmäsi imkanlarını daxil etmäklä nümunävi qanunların vä müäyyän sahälärä dair äxlaq kodekslärin layihälärinin tärtibi imkanlarını tädqiq etsin.

## Korrupsiya üzrä Çoxsahäli Qrupun (GMC) dövri vä müäyyänedici tapşırıqları

1995-ci il ärzindä Korrupsiya üzrä Çoxsahäli Qrup (GMC) Korrupsiyaya Qarşı Fäaliyyät Proqramın layihäsini hazırlamışdır. 1996-cı ilin yanvarında Nazirlär Komitäsi bu layihä haqqında Cinayätkarlıq Problemläri üzrä Avropa Komitäsi (CDPC) vä Hüquqi Ämäkdaşlıq üzrä Avropa Komitäsindän (CDCJ) räy täläb etmişdir vä eyni zamanda Korrupsiya üzrä Çoxsahäli Qrupa (GMC) 1996-cı ildä yuxarıda göstärilän Korrupsiyaya Qarşı Fäaliyyät Proqramı layihäsinin bir sıra bändläri üzärindä işä başlanmasını tapşırmışdır. Korrupsiya üzrä Çoxsahäli Qrupa (GMC) bu sälahiyyätlär verilmişdir:

bir vä ya bir neçä beynälxalq sänädlär üzärindä işä başlamaq;

korrupsiya fäaliyyätindän däyän mülki ziyanın ödänilmäsi üzrä konvensiyanın tärtibi üçün texniki-iqtisadi äsaslandırmanı hazırlamaq;

Dövlät Väzifäli Şäxslär üçün Avropa Äxlaq Kodeksi üzärindä işlämäk;

Korrupsiyaya qarşı mübarizädä mäsuliyyät daşıyan milli orqanların görüşünü keçirmäk.

1996-cı ilin noyabrında Nazirlär Komitäsi Cinayätkarlıq Problemläri üzrä Avropa Komitäsi (CDPC) täräfindän qeyd olunan iradları näzärä alaraq Korrupsiyaya Qarşı Fäaliyyät Proqramı layihäsinä baxılmasını davam etdi. Nazirlär Komitäsi Korrupsiyaya Qarşı Fäaliyyät Proqramını qäbul etdi, onunyayılması haqqında göstäriş verdi vä Korrupsiya üzrä Çoxsahäli Qrupa (GMC) yuxarıda qeyd edilän Proqramı 31 dekabr 2000-ci ilä qädär yerinä yetirmäyi tapşırdı. Nazirlär Komitäsi korrupsiya ilä mübarizäyä aid bir vä ya bir neçä beynälxalq razılaşmaların vä burada qeyd olunan öhdäliklärin icrasına näzarät mexanizmlärinin işlänilmäsinä dair Korrupsiya üzrä Çoxsahäli Qrupun (GMC) sä ylärini bäyänmişdir.

## Görüşlär vä işgüzar metodlar

Korrupsiya üzrä Çoxsahäli Qrup (GMC) 1995-ci ilin fevral ayından başlayaraq här il cämi dörd görüş keçirir. O "İşçi Qruplarında" vä Plenar sessiyalarda inzibati mäsäläläri nizamlayan Büro ilä birlikdä çalışır. İşçi qruplara - Hüquqi Cäza Mäsäläläri Üzrä İşçi Qrupu (GMCP), İnzibati vä Konstitusiya Hüququ Mäsäläläri Üzrä İşçi Qrupu (GMCA) vä Mülki Hüquq Mäsäläläri Üzrä İşçi Qrupu (GMCC) aiddir. Avropa Şurasının bütün üzv-Dövlätläri Korrupsiya üzrä Çoxsahäli Qrupa (GMC) ekspert täyin etmäk hüququna malikdir. Avropa İqtisadi Birliyi vä Avropa Şurası arasında ämkdaşlığa dair 1996-cı il noyabr mäktublaşmasından sonra Avropa Komissiyası Korrupsiya üzrä Çoxsahäli Qrupun (GMC) işindä iştirak edir. Bundan başqa növbäti ölkälärin näzarätçi täyin etmäk hüquq var: Avstraliya, Belorusiya, Bosniya vä Herseqovina, Kanada, Gürcüstan, Vatikan, Yaponiya, Meksika, Yeni Zelandiya vä Amerika Birläşmiş Ştatları. Eläcä dä növbäti beynälxalq täşkilatlar vä qurumlar Korrupsiya üzrä Çoxsahäli Qrupa (GMC)näzarätçi täyin etmäk üçün dävät olunmuşlar: İqtisadi Ämäkdaşlıq vä İnkişaf Täşkilatı, Birläşmiş Millätlär Täşkilatı, İnterpol, Avropa Yenidän Qurma vä İnkişaf Bankı, Dünya Bankı. Avropa Şurasının vä beynälxalq täşkilatların üzvü olmayan bäzi dövlätlär Korrupisya üzrä Çoxsahäli Qrupun (GMC) vä onun İşçi qrupları işindä çox fäal iştirak etmişlär. Bir neçä alim-ekspertlär Korrupsiya üzrä

Çoxsahäli Qrupa (GMC) kömäk etmişlär. Xüsusän alim-ekspert cänab Bertran Spevill (Böyük Britaniya).

Korrupsiyaya Qarşı Fäaliyyät Proqramının icrası

Verilän tapşırıqlara uyğun olaraq Korrupsiya üzrä Çoxsahäli Qrup (GMC) korrupsiyaya qarşı iki beynälxalq sänädin hazırlanmasına başladı, biri mähkämä mäsäläläri ilä älaqädar "klassik" konvensiya vä o birisi müäyyän olunmuş mövzular üzrä müvafiq sänädlär vä protokollarla sonradan älavä olunmalı "çärçivä konvensiyası". Bu iki sänädin yekunlaşmış forması vä qarşılıqlı älaqäsi Korrupsiya üzrä Çoxsahäli Qrup (GMC) täräfindän hälä işlänib başa çatmalıdır.

Çärçivä konvensiyası layihäsi geniş mövzu diapazonunu ähatä edir: korrupsiyalı davranışın kriminallaşmasına baxılması vä rüşvätdän vergi tutulmasının qadağan olunmasından dövlät tenderläri vä dövlät xidmätinin mäsuliyyätinä qädär. Korrupsiya üzrä Çoxsahäli Qrup (GMC) täräfindän 1996-cı ilin dekabrından üzärindä işlänilän sänäd hazırlığın yekun pilläsindädir vä yalnız bir neçä äsasnamäyä görä ilk oxunuşa täqdim edilmäyib. Çox güman, inanmaq olar ki, layihä Cinayätkarlıq Problemläri Üzrä Avropa Komitäsinä (CDPC) vä Hüquqi Ämäkdaşlıq Üzrä Avropa Komitäsinä (CDCJ) räy söylämäk üçün vä daha sonra Nazirlär Komitäsinä qäbul üçün 1998-ci ilin birinci yarısında täqdim ediläcäk.

Hazırda Hüquqi Cäza Mäsäläläri Üzrä İşçi qrupu (GMCP) täräfindän hazırlanan Korrupsiya üzrä cinayät hüququ Konvensiyasının ilkin layihäsi ikinci oxunuşda müzakirä olunurö Bu mätn eläcä beynälxalq ämäkdaşlıqda korrupsiya qanun pozulmalarının böyük kämiyyätinin uzlaşdırılmış kriminallaşmasını näzärdä tutur. Gözlänilir ki, bu sänäd 1998-ci ilin ävvälindä Korrupsiya üzrä Çoxsahäli Qrupun (GMC) plenar sessiyasının ekspertizasına bütövlükdä hazır olacaq.

Mülki hüquqa gäldikdä isä Korrupsiya üzrä Çoxsahäli Qrup (GMC) Korrupsiyadan yaranan mülki ziyanın ödänilmäsi üzrä konvensiya layihäsinin işlänilmäsi imkanlarının öyränilmäsinä dair akt tärtib etmişdir. 1997-ci ilin fevralında Nazirlär Komitäsi bu tädqiqatı müzakirä etmiş vä qärara almışdır ki, Korrupsiya üzrä Çoxsahäli Qrup (GMC) verilän tapşırıq ona oradakı tövsiyäläri yerinä yetirmäk imkanını vermişdir. Beläliklä, 1997-ci ilin martında Mülki Hüquq

Məsələləri Üzrə İşçi Qrupu (GMCC) bu sahədə hüquqi sənəd layihəsinin tərtibi məqsədi ilə işə başladı.

1997-ci ilin martında İnzibati və Konstitusiya Hüququ Məsələləri Üzrə İşçi Qrupu (GMCA) dövlət vəzifəli şəxslər üçün əxlaq kodeksi nümunəsinin hazırlanmasına başladı.

Qeyd etmək lazımdır ki, Korrupsiya üzrə Çoxsahəli Qrupun (GMC) fəaliyyəti milli və beynəlxalq səviyyədə korrupsiya ilə mübarizə və bununla əlaqədar problemlərə dair nailiyyətlər haqqında iştirakçıların məlumatı üçün faydalı hesabat palatası kimi yararlıdır. Sonda, korrupsiyaya qarşı mübarizəyə məsuliyyəti olan milli orqanların ilk görüşü keçən il Strasburqda keçirilmişdir; ikinci belə görüş bu il Estoniya Hökumətinin dəvəti ilə orada keçiriləcək.

Korrupsiyaya Qarşı Çərçivə Konvensiyasının layihəsi

Hazırda Korrupsiya üzrə Çoxsahəli Qrupun (GMC) hazırladığı Korrupsiyaya Qarşı Çərçivə Konvensiyasının layihəsinin 3 əsas məqsədi var:

korrupsiyaya qarşı mübarizənin əsasında duran geniş beynəlxalq sazişlərə gətirən prinsipləri təsdiq etmək:

korrupsiyaya qarşı faydalı mübarizə üçün vacib olan beynəlxalq tədbirlərin müəyyən edilməsi və tətbiqi prosesin başlanması;

Tərəflərin məsuliyyətini möhkəmləndirən nəzarət mexanizmini təmin etmək. Nəzərdə tutulmuş mexanizm ənənəvi xarakter daşımır çünki təyin edilmiş vəzifələr öz xüsusiyyəti və məzmununa görə üsullar və nəticələr nöqteyi-nəzərindən müəyyən olunan bəzi öhdəliklərlə müqayisə edilməzdir və dəqiqlik səviyyəsindən asılı olaraq həmçinin müxtəlif ola bilər. Beləliklə, nəzarət mexanizmi eyni zamanda Tərəflərin bəzi vəzifələrini dəqiq icrasına nəzarət üçün istifadə edilə bilər və eləcə də, ən vacibi də elə budur ki, o bütün sahələrdə korrupsiyaya qarşı mübarizə üçün əsaslı təkanın təmin olunması məqsədinə xidmət edir.

Çärçivä Konvensiyasının layihäsi korrupsiyaya münasibätdä onu müräkkäb täzahür kimi qiymätländirir. Xüsusän korrupsiya niyyäti qanunun hüdudlarından känara çıxan fäaliyyäti ähatä edir vä mänävi cähätdän ittiham olunan, faktik olaraq sonradan qanun çärçiväsini pozan fäaliyyätin äsasını qoyan davranışı özünä daxil edir. Layihädä riayät edilmäsi üçün vacib olan göstärişlär hökumätlärin diqqätini korrupsiyaya qarşı mübarizä märamına yönäldilib, onların öhdäsinä isä bu problemlä necä mäşqul olmaq, tähsil vä mälumat vasitäsilä, eläcä dä lazım olanda müvafiq daxili hüquqi sänädlär vasitäsilä seçimi hävalä edilir.

Bu sänädin Çärçivä Konvensiyası kimi täyin olunmasının säbäbläri ikitäräflidir:

dövlätlärin korrupsiyaya qarşı mübarizä täcrübäsindä vä onların milli qanunvericiliyindä riayät etmäli olduqları prinsiplärin sadalanması;

müxtälif älavä sänädlärä müvafiq olaraq yekunlaşmalı olan äsas strukturun tämin edilmäsi.

Orada ki, lazımdır bu älavä sänädlär Täräflärin korrupsiyaya qarşı mübarizädä tätbiq etmäk üçün razılaşdıqları addımları, o cümlädän aradan qaldırma tädbirläri, cinayät hüququ, tähqiqatın effektliyinä vä ädalätsiz üsulların cäzalandırmasına zämanät verän tädbirläri, maliyyä aspektläri, idaräçilik mexanizmläri vä dövlät sifarişlärinin täqdimatı kimi müäyyän maddäläri ähatä edäräk, täyin edirlär. Bu älavä sänädlär mütläq täsnifatına görä müxtälif olacaq, onlar mäcburi, protokol vä ya yeni razılaşmalar tipindä, yaxud da qeyri-mäcburi tövsiyälär, qätnamälär, qanunverici vä ya kodeks nümunäläri, bäyanatlar, mäslähätlär, mälumat mübadiläsi yaxud tälim vä tähqiqat proqramları tipindä ola bilär.

Hämçinin näzärdä tutulur ki, bu Konvensiya belä desäk "açıq" Konvensiya olacaq, bu o demäkdir ki, üzv olmayan Dövlätlär ona qoşula bilär. O eläcä dä Avrora İqtisadi Birliyinin imzası üçün açıq olacaq. Korrupsiya üzrä Çoxsahäli Qrupun (GMC) fikrincä, onun tätbiqi dairäsini Avropadan känara genişlänmäsi korrupsiyaya qarşı käsärli mübarizä üçün çox ähämiyyätlidir.

Çärçivä Konvensiyası vä älavä sänädlär arasında älaqäländirici başlanğıc, Hökumätlär täräfindän häyata keçirilän addımların qısa xülasäsini tämin edän vä hätta vasitälär seçimi hökumätlärin öhtäsinä buraxıldıqda belä onların säylärinin uyğunlaşmasının müäyyän däräcäsinä zämanät verä bilän, ümumi näzarät mexanizmi ola bilär.

Çärçivä Konvensiyası layihäsinin mövcud strukturu beş fäsildän vä preambuladan ibarätdir. Preambula Valettada Ädliyyä Nazirlärinin görüşünä istinadından başqa heç bir tarixi äsaslanmanı täsdiq etmir. Bunun äväzinä, Korrupsiya üzrä Çoxsahäli Qrup (GMC) korrupsiyanın töräddiyi ziyanın ciddi vä müxtälif formalarının vä çoxsahäli milli vä beynälxalq yanaşma vasitäsilä bununla mübarizänin täcili täläbatının qısa şäkildä çärçiväsinin cızmasına üstünlük verdi.

Birinci fäsil "Korrupsiyaya qarşı öhdäliklär" Täräflärin korrupsiyaya qarşı ciddi mübarizäsinin räsmi öhdäliklärinin üç äsas elementini äks etdirir. Täräflär (1) täzahürün täyin olunması, (2) müvafiq daxili tädbirläri görmäklä Çärçivä Konvensiyasını häyata keçirmäk vä (3) mövcud müddäalar diapazonuna älavälärin edilmäsinä yönälän beynälxalq tädbirlärä dair müsbät mövqedä olması ilä razılaşırlar.

İkinci fäsil, "Milli säviyyädä tätbiq edilän tädbirlär", on iki maddädä korrupsiyaya qarşı mübarizädä milli tädbirläri täläb edän bütün sahäläri ähatä edir. Bäzi istisnalarla, bu tädbirlär Dövlätläri müqavilä bağlayan zaman korrupsiyaya qarşı milli strategiyaya ämäl etmäyä vädar edän prinsiplär vä ya rähbär prinsiplär formasını daşıyır. Prinsiplär vä ya rähbär prinsiplär gäläcäkdä älavä sänädlärdä şärh edilä bilär. Äksär hallarda täläb oluna bilän bu tädbirlärin istiqamäti artıq Çärçivä Konvensiyasının layihäsindä täsbit olunub. Bu qayda ilä häll olunan problemlärin siyahısı - faktik olaraq Korrupsiyaya Qarşı Fäaliyyät Proqramının razılaşma dilinä çevrilmäsidir. Xüsusilä, bu fäil korrupsiyanın aradan qaldırılmasını, qanun pozulmalarını kriminallaşmasını, korrupsiya hallarında tähqiqatın, mähkämä täqibinin vä işin häll olunmasının effektliliyini, ixtisaslaşmış orqanları, maliyyä aspektläri, dövlät xidmätlärinin öhdäliklärini, dövlät tädarükünü, seçilmiş nümayändäläri, kütlävi informasiya vasitälärinin

rolunu, mülki hüquq tädbirlärini, ictimai näzarätin güclänmäsini, tädqiqatı vä tälimi ähatä edir.

Üçüncü fäsil beynälxalq ämäkdaşlıqla älaqädardır.

Dövrdüncü fäsil, "gäläcäk özünämäxsusluqlar vä müşahidälär", Täräflärin qäbul etdiyi öhdäliklärä dair müşahidä mexanizmini ähatä edir.

Beşinci fäsilin ähatä etdiyi "yekun müddäaların" äksäriyyäti Avropa Şurasının başqa sazişläri ilä eyniläşir. Çärçivä Konvensiyasının qüvväyä minmäsi üçün lazım olan ratifikasiyaların minimal sayı mäsäläsi Korrupsiya üzrä Çoxsahäli Qrupun (GMC) daxilindä äsaslı fikir mübadiläärin mövzusu olmuşdur. Kreditorlar arasında iqtisadi mübahisälär äsas gätiräräk bäzi ekspertlär bu sayın yüksäk olmasını täklif etmişlär: ägär Hökumätlär äsas korrupsiya qanun pozulmalarının birinä, mäsälän xarici dövlät väzifäli şäxsin rüşvätlä älä alınmasına, mübarizä elan edärsä, onlar öz ixracçılarını onlara räqib olanlarla müqayisädä qeyri-bärabär väziyyätdä qoya bilärlär. Belä yanaşma ona äsaslanır ki, bäzi Hökumätlär belä kommersiya silahına yalnız o zaman güzäştä getmäyä razılaşırlar ki, onların räqibläri da bunu eyni ilä etsinlär. Lakin Korrupsiya üzrä Çoxsahäli Qrup (GMC) hämçinin äks täräfdän yarana biläcäk riskdän känarlaşmaq istärdi, çünki bu hädd o däräcädä yüksäk ola biläcäk ki, Konvensiyanın qüvväyä minmäsiniuzaq perspektivä çeviriläcäk vä bunu görän hökumätlär vä parlamentlär onun ratifikasiyasına baxılmasını tezläşdirmäyä ehtiyac duymayacaqlar. Beläliklä kompromis qärar näzärdä tutur: bäzi müddäaların qüvväyä minmäsi üçün ratifikasiyanın sayı nisbätän yüksäk olmalı vä Konvensiyanın qalan hissäsi üçün ratifikasiyanın sayı aşağı olmamalıdır.

Müşahidä mexanizmi.

Avropa Şurası korrupsiyaya qarşı mübarizäyä başlandığı vaxtdan korrupsiyaya qarşı beynälxalq sänädlärinin näzarät mexanizmini näzärä almaq ehtiyacı qäbul edilmişdir (Bax: 14-15 iyul 1994-cü il Maltada, Vallettada Avropa Ädliyyä Nazirlärinin Konfransının Qätnamäsinä vä 1994-cü ilin sentyabrında vä 1996-cı ilin yanvarında Nazirlär Komitäsi täräfindän Korrupsiya üzrä Çoxsahäli Qrupa (GMC) verilän tapşırığa). Korrupsiya üzrä Çoxsahäli Qrup (GMC) müşahidä

mexanizmini sadäcä bäzi väzifälärin icrasını yoxlamağa çalışan näzarät mexanizmi kimi qäbul etmäyi qänaätbäxş hesab etmir. Korrupsiya ämäkdaşlıq, yüksäk säviyyäli ekspertlärin täcrübä mübadiläsi, häyata keçirmä vä qarşılıqlı häväsländirmä sänädi kimi görmäk istärdi.

Bu mäsälä üzrä fikir mübadiläsi näticäsindä bu mexanizmi idaräedän növbäti prinsiplärä dair geniş razılıq äldä edilmişdir:

Effektlik;

Çeviklik;

Razılıq;

Qarşılıqlı täsir;

Dialoq vä kooperasiya.

Korrupsiya üzrä Çoxsahäli Qrup (GMC) mövcud olan müxtälif razılaşmalara daxil edilmiş müşahidä mexanizminin bir neçä modelinä baxmışdır. Hazırda baxılan model Milli Azlıqların Müdafiäsi üzrä Çärçivä Konvensiyasında näzärdä tutulan modelä uyğundur. Bu model müäyyän ekspertlär komitäsinin yaradılmasını näzärdä tutur. Komitä Avropa Şurasının ali siyasi orqanı kimi son näticädä müşahidä prosesinä cavabdeh olan Nazirlär Komitäsinä kömäk edän xüsusi orqan kimi fäaliyyät göstärän tämännasız vä müstäqil orqan olmalıdır. Hazırda näzärdä tutulur ki, bu mäşğul olduğu mäzmunundan asılı olaraq müxtälif ekspertlärdän ibarät xüsusi orqan olacaq. Ekspertlär Täräflärin täqdim etdiyi siyahıları äsasında Nazirlär Komitäsi täräfindän seçiläcäk. Hazırki layihä ikiillik müşahidä dövrlärini, här dövrdä tädqiq olunacaq Çärçivä Konvensiyasının mövzusu vä ya müddäasının Nazirlär Komitäsi täräfindän seçimini näzärdä tutur. Xüsusi orqanın mähdud sayda eksperti olacaq (Täräflärin say uyğunluğu vacib deyil), lakin Täräflärin sayına uyğun olaraq tärkib proporsional şäkildä däyişiläcäk.

Xüsusi orqanın işini siyasi orqan olan Nazirlär Komitäsi ilä birläşdirmäk qärarı üzv olmayan Dövlätlärin müşahidä mexanizmindä iştirak etmäk problemini

qaldırır. Bu problemä hälä ki Korrupsiya üzrä Çoxsahäli Qrup (GMC) täräfindän baxılır. Mümkün olan qärarların birinä görä layihäyä üzv olmayan Dövlätlär üzv-Dövlätlärlä eyni säviyyädä iştirak etmäsi vä Nazirlär Komitäsi ilä iştirakın mümkünlüyü haqqında razılaşma memorandumu müzakirä edilärsä xüsusi bäyanat vasitäi ilä här bir üzv olmayan Dövlätin müşahidä mexanizmindä iştirak etmä hüququnun verilmäsi konsepsiyası daxil olunmalıdır. Korrupsiya üzrä Çoxsahäli Qrup (GMC) därk edir ki, bu sistem mükämmäl deyil, çünki üzv-Dövlätlärin müşahidä mexanizmindä iştirak etmäk imkanı veräräk vä üzv olmayan Dövlätlärin oradan prinsipcä çıxararaq bu Täräflär arasında qeyri-bärabärliyi näzärdä tutur; hamının iştirakı vä birgä koordinasiyası säyi - korrupsiyaya qarşı beynälxalq mübarizänin müväffäqiyyätinin şärtlärindän biridir. Bu mänada, Korrupsiya üzrä Çoxsahäli Qrupun (GMC) fikir mübadiläsi zamanı müzakirä etdiyinä görä, nümunä kimi Maliyyä Fäaliyyätinin Mäqsädyönlü Qrupunu (FATF) göstärmäk olar, Qarşılıqlı qiymätländirmä vä müqayisäetmä täsirinä äsaslanan onun modeli pulun "paklanmasına" qarşı mübarizädä käsärli kimi qäbul edilmişdir.

**Korrupsiya fäaliyyätindän töränmiş mülki ziyanın ödänilmäsi üzrä konvensiyanın yaradılmasına dair texniki-iqtisadi äsaslandırılma.**

Mülki Hüquq Mäsäläläri üzrä İşçi Qrupu (GMCC) dövlätlärä ünvanlandığı sorğu väräqäsi äsasında tärtib etdiyi bu äsaslanma 1996-cı ilin oktyabrında Korrupsiya üzrä Çoxsahäli Qrupun (GMC) plenar sessiyasında qäbul edilib. Hüquqi Ämäkdaşlıq Üzrä Avropa Komitäsi (CDCJ) bunu näzärä almış vä Nazirlär Komitäsi 1997-ci ilin fevralında bunu tädqiq etmişdir. Qärara alınmışdır ki, tapşırıq yerinä yetirilib vä Korrupsiya üzrä Çoxsahäli Qrup (GMC) äsaslanmada iräli sürülän tövsiyälärin icrasına başlaya bilär.

Äsaslanma mülki hüququ vä korrupsiya ilä älaqädar imkan daxilindä bütün aspektlärin tam täsvirini, xüsusilä bu sahädä bu vä ya digär hüquqi sänädlärin layihälärinin tärtibinin lehinä vä ya älehinä olan izahları qeyd edäräk äks etdirir. Äsaslanma göstärir ki, şäxsiyyätä däyän ziyanın ödänilmäsi üçün mülki hüququndan istifadäsinin korrupsiyanın göstärilän formalarına qarşı faydalı olmasını äks etdirän bir çox ssenarilär fikirläşmäk olar.

Bu texniki-iqtisadi äsaslanmada tädqiq edilän ilk problem ümumiyyätlä ziyanın ödänilmäsi üçün mülki hüququnun mümkünlüyü vä effektliliyi ilä älaqädardır. Ziyanın ödänilmäsi üçün mülki hüququnun mümkünlüyünün vä effektliliyinin çatışmamazlılığı korrupsiya ilä mübarizädä mülki hüququndan istifadä olunmasına äsas maneälärdän biri kimi qeyd oluna bilär. Ziyanın ödänilmäsi üçün mülki hüquq yalnız o halda käsärlidir ki, o zärärçäkänlär üçün asanlıqla äldä edilä bilsin vä onların maraqlarının adekvat müdafiäsini tämin etsin. Korrupsiyadan zärärçäkänlär çox vaxt mülki iddiasından imtina edirlär, mäsälän, müdirlä qulluqçu arasında qeyri-bärabär şäraitin, pul vä vaxt itirmäk riskin olmasından, vä ya kommersiya säbäblärindän vä korrupsiyanı işküzar sazişlärin bir hissäsi olan mädäni amil kimi qäbul etmäsindän; başqa mümkün säbäblärä qanunun yerinä yetirilmäsindä qeyri-müäyyänlik; (yäni hansı ölkänin qanunlarını vä qanunun hansı sahäsini tätbiq etmäk), prosessual maneälär vä hökmün mäcburi häyata keçmäsindä çätinliklär daxil ola bilär. Başqa çätinliklär dälillärä aiddir.

Texniki-iqtisadi äsaslanma eläcä dä mähkämä täqiblärindä sübutlara vä mähkämä täqibi gedişatında zärärin ödänilmäsini täläb edän täräflärin hüquqlarına aid olan mäsäläläri tädqiq edir. Texniki-iqtisadi äsaslanmada öz äksini tapan başqa vacib problemlärä şirkätlärdä ifşaçıların müdafiäsinä vä korrupsiya fäaliyyäti näticäsindä äldä edilmiş müqavilälärin hüquqi näticälärinä aiddir.

Texniki-iqtisadi äsaslanma yurisdiksiyanın tätbiq olunmasına dair adekvat tädbirlärin vacibliyini vä hökmün mäcburi häyata keçmäsininkäsärliliyini qeyd edir. Xüsusän, Brüsseldä vä Luqanoda Yurisdiksiyaya vä Mülki vä Kommersiya mäsälälärindä hökmün mäcburi häyata keçirilmäsi üzrä Razılaşmalarda vä müqaviládän iräli gälän öhdäliklärä tätbiq edilän qanununa dair 1980-cı ilin Roma Razılaşmasında täsbit olan prinsiplärä istinad edilir.

Korrupsiyanın çox vaxt milli särhädlärdän känara yayıldığına görä texniki-iqtisadi äsaslanma beynälxalq kooperasiyanın vä oordinasiyasının vacibliyini qeyd edir. Korrupsiya halları zamanı däyän zäräräin ödänilmäsini täläb edänlär üçün mülki ziyanın ödänilmäsini tämin etmäyi qärara alan Dövlätlär xarici

ticaräti vä belä siyasäti qäbul etmäyän başqa dövlätlärin investisiya biznesini itirmäkdän ehtiyat edä bilär.

Texniki-iqtisadi äsaslanma yekunlaşdıraraq qeyd edir ki, korrupsiya halları ilä älaqädar vätändaş hüququn müxtälif aspektlärinin äsas vä prosessual müddäalarının härtäräfli işlänilmäsinä baxılması Korrupsiya üzrä Çoxsahäli Qrup (GMC) üçün vacibdir. Mövzuya dair gäläcäk Beynälxalq sänädin vä ya sänädlärin layihälärinin tärtibi ilä älaqädar növbäti bändlärä baxmaq lazımdır:

Korrupsiyadan zärärçäkänin (onların) müäyyän edilmäsi;

Fäaliyyät vä zärärin ödänilmäsi arasında säbäb älaqäsi;

Zärärin vä itirilän gälirin effektlimaddi vä qeyri-maddi ödänilmäsi;

Müqavilälärin hüquqi qüvväsi vä näticäläri;

İfşaçıların müdafiäsi;

Şirkätlärin işindä şäffaflıq (auditorların, bankların rolu, şirkätlärin mühasibat uçotunun qanunverici aspektläri);

Prosesin xärcläri;

Ziyanın dolayı vä ya birbaşa ödänilmäsi (mäsälän, dövlät ticarätindän müväqqäti känarlaşdırılma, inzibati tädbirlär, lisenziyadan mährum olma, qeyri-ädalätli räqabät haqqında hökmün elan edilmäsi, gäläcäk anti-räqabät fäaliyyätin qadağan olunmasına dair tädbirlär; hökmün näşri, zärärçäkänin xeyirinä rüşvätlä äldä edilmiş ämlakın müsadiräsi);

Tätbiq edilän qanun, yurisdiksiya vä xarici hökmlärin mäcburi häyata keçirilmäsi;

Mähkämä ämäkdaşlığı.

Mülki Hüquq Mäsäläläri Üzrä İşçi Qrupu (GMCC) hal-hazırda texniki-iqtisadi äsaslanmada olan tövsiyälär äsasında korrupsiya fäaliyyätindän iräli gälän mülki zärärin ödänilmäsi haqqında beynälxalq sänädinin ilkin layihäsinä baxır.

Korrupsiya üzrä Cinayät Hüququ Konvensiyasının layihäsi.

Nazirlär Komitäsinin verdiyi tapşırığa uyğun olaraq 1996-cı ilin fevral ayında Hüquqi Cäza Mäsälälári Üzrä İşçi Qrupu (GMCP) Cinayät Hüququ Konvensiyasının layihäsini hazırlamağa başlamışdır. O vaxtdan, Hüquqi Cäza Mäsälälári Üzrä İşçi Qrupu (GMCP) bu mätnin ilk oxunuşunu bitirmişdir, vä 1997-ci ilin fevralında ikinci oxunuşa başlamışdır.

Bu ilkin Konvensiya layihäsi äsasän bäzi korrupsiya qanun pozulmalarının aid olan milli qanunvericiliklärinin tarazlaşdırılmasına istiqamätlänib. Bundan başqa, layihä müzakirä edilän qanun pozulmalarına dair beynälxalq ämäkdaşlığın yaxşılaşmasına çalışır. Yaxın keçmişin beynälxalq täcrübäsi göstärir ki, bu ämäkdaşlıq millätlärarası korrupsiya halları vä o cümlädän xarici väzifäli şäxslärin korrupsiyası ilä älaqädar olan prosedurlara dair problemin üç tipi ilä qarşılaşır: birinci, tez-tez ölkädän ölkäyä däyişän korrupsiya qanun pozulmalarının täyini vä tätbiqi sahäläri ilä älaqädär problemlär; ikinci, qanun pozulmaları zamanı mähkämä tähqiqatına mane olan vä onu gecikdirän prosessual problemläri, vä hämçini çox zaman siyasi problemlärindän ibarät olan beynälxalq ämäkdaşlığın vasitäläri vä yollar ilä bağlı olan problemlär; sonda, qeyri-qanuni ticarätlä älaqädar bäzi qanun pozulmalarının kriminallaşmasının olmamasından iräli gälän problemlär. Demäli ki, Konvensiyaya qoşulan ölkälärdä korrupsiya qanun pozulması täfsirinin uyğunlaşdırılması ikili cinayät tählükäsinin qarşısını almaq täläbi yerinä yetiriläcäksä, beynälxalq ämäkdaşlıq sahäsindä täklif olunan tätbirlär äsas maneäläri aradan qaldırmağa yönälirlär.

Hazırki Konvensiyanın layihäsi Täräflärin öz qanunvericiliklärindä kriminallaşdırmalı olduqları növbäti davranışları daxil edir:

Milli dövlät väzifäli şäxslärin aktiv vä passiv korrupsiyası;

Xarici väzifäli şäxslärin aktiv vä passiv korrupsiyası;

Biznes sektorunda aktiv vä passiv korrupsiya;

Milli vä xarici dövlät väzifäli şäxsläri daxil etmäklä, nüfuz alveri;

Beynälxalq täşkilatlarda fäaliyyät göstärän beynälxalq väzifäli şäxslärin vä başqa insanların korrupsiyası;

Yüksäk väzifäli şäxslärin vä beynälxalq täşkilatların nümayändälärin korrupsiyası;

Pulun "paklanması ilä älaqädar korrupsiya";

Mühasibat uçotu ilä älaqädar korrupsiya.

Häläki hälli tapılmayan, lakin bu mätndä qoyulan problemlärdän biri aktiv korrupsiyanın täyin olunmasıdır vä xususän, verilän vä ya väd edilän üstünlük väzifäli şäxsin davranışını "korrupsiyalı" kimi qiymätländirilmäsi üçün kifayätdirmi, yaxud bundan başqa üstünlük qäbul etmäsi vä ya üstünlüyün väd edilmäsi zamanı väzifäli şäxsin davranışı qanunla täsbit olunan väzifäsinä üstälik zidd olmalıdır. Xarici väzifäli şäxslärin ifşa edilmäsi ilä älaqädar mübahisäli problemä gäldikdä Hüquqi Cäza Mäsäläläri Üzrä İşçi Qrupu (GMCP) näzärdä tuturdu ki, bu qanun pozulması Konvensiyanın özäyindä olduğuna görä Konvensiyanın tätbiqi sahäsi här hansı Dövlätin väzifäli şäxsinin korrupsiyasını ähatä etmäsinä qädär genişlänmälidir.

Bundan başqa, layihäyä yurisdiksiya, sanksiyalar vä tädbirlär, hüquqi şäxslärin mäsuliyyäti, korrupsiyaya qarşı mübarizä üçün xüsusi orqanların yaradılması, şahidlärin vä mähkämä hakimiyyäti ilä ämäkdaşlıq edän insanların müdafiäsinä cavabdeh olan hüquq mühafizä vä (inzibati) näzarät orqanları arasında ämäkdaşlıq kimi başqa äsaslı vä prosessual problemlär dä daxildir.

Beynälxalq ämäkdaşlıq mäsälälärinä gäldikdä Hüquqi Cäza Mäsäläläri Üzrä İşçi Qrupu (GMCP) hesab edirdi ki, Konvensiyada bu problemä yaxınlaşmağın äsasän iki yolu var. Birinci, dar ıä ya dolayı yanaşma kimi qeyd edilä bilär, bu artıq cäza sahäsindä beynälxalq ämäkdaşlıq üzrä mövcud sänädlärdä olduğu kimi ümumi müddäaların daxil edilmäsinä gätirir. İkinci, geniş vä ya birbaşa yanaşma, Konvensiyanın mövzusu olan qanun pozulmalarına dair beynälxalq ämäkdaşlığın müäyyän myddäalarını daxil etmäsinä çalışır. Hüquqi Cäza Mäsäläläri Üzrä İşçi Qrupu (GMCP) korrupsiya hallarında tätbiq olunan bäzi

müäyyän müddäalardan vä ümumi prinsiplärdän ibarät olan kompromis qärarı seçmişdir. Beläliklä, layihä korrupsiya qanun pozulmasına görä günahlandırmada ümumi ämäkdaşlıq öhdäçiliyi, vä xüsusän qarşılıqlı mähkämä kömäyi vä ya täläb edilän şäxsin verilmäsi kimi öhdäçiliyi, täsbit edir. Bundan başqa, Konvensiya korrupsiya qanun pozulmasına dair siyasi istisnanı känar edir, bilavasitä mälumatın ötürülmäsini yüngülläşdirir vä birbaşa mälumat kanallarından istifadäyä icazä verir. Näticädä, layihä tämin edir ki, beynälxalq ämäkdaşlıqla älaqädar olan, lakin bu layihädä müäyyän müddäalar şäklindä öz äksini tapmayan bütün problemlär mövcud razılaşmalara müvafiq olaraq häll olunacaq.

Dövlät Väzifäli Şäxslär üçün Äxlaq Kodeksin nümunäsi.

Dövlät väzifäli şäxslär üçün Äxlaq Kodeksin mäqsädi üçtäräflidir: ähaliyä göstärilän dövlät xidmätindä üstün olmalı etik iqlimi täyin etmäk, Dövlät väzifäli şäxsdän gözlänilän etik davranış standartlarını täfsilatı ilä qeyd etmäk vä cämiyyät üzvlärinä Dövlät väzifäli şäxsin davranışından işlä älaqädar näyi gözlämäk vä näyä ümid bäslämäk olar.

Bu layihä üçün “Dövlät väzifäli şäxs” termini mävacibi dövlät gälirindän ödänilän qulluqçular demäkdir. Lakin termin milli vä bälädiyyä qanunverici yığıncaqlarının nümayindälärini ähatä etmir. Kodeksi qäbul etmäk istäyän vä ya sadäcä olaraq onu meyar kimi istifadä etmäk istäyän Täräflär bunu öz yurisdiksiyalarında kimä tätbiq olunacağını müäyyän etmälidirlär.

Äxlaq Kodeksi häm dövlät sänädi häm dä ayrı-ayrılıqda här bir Dövlät väzifäli şäxsinä ünvanlanan mälumatdır. Ägär Dövlät väzifäli şäxsin davranışı izah edilirsä, vacibdir ki, ondan gözlänilän davranışa riayät etmädikdä onu nä gözläyir vä o näyi bilmälidir kimi mäsälälär haqqında mälumatlanmalıdır. Onun xidmät müddätinin hansı standartlara müvafiq olaraq keçirilmäsi haqqında aydın, qısa vä sadä yazılı surätdä täsdiqlänmäsi - äsas täläbdir.

Korrupsiya ilä älaqädar olan beynälxalq Konvensiya kontekstindän çıxış edäräk Äxlaq Kodeksinin nümunäsi Dövlät väzifäli şäxsin meylli olduğu korrupsiya tählükäläri, onların aşkar olunması vä aradan qaldırılması ätrafında

cämläşmälidir. Lakin korrupsiya ilä geniş etik problemlär arasında särhäd xätti çox dar çäkildikdä böyük ehtimal var ki, kodeksdä vurğunlama sähv olsun. Mähz tarazlığın vä balansın saxlanılması üçün Dövlät väzifäli şäxslärin davranış kodeksinä bilavasitä korrupsiyanın aradan qaldırılması vä ya aşkar edilmäsi ilä prinsiplärin aşağıdakı qruplara särbäst birläşän ümumi tästiqlämälärindän ibarätdir:

Çalışqanlıq, effektlilik, qänaetlilik;

Mäxfilik, sirr;

Müstäqilliyin, tämannasızlığın därächäsi;

Ädalätlilik, paklıq, professional tälim.

Täqdim olunan kodeksin layihäsi hämçinin bütövlükdä şäxsi paklıqla vä xidmäti qulluğunda doğruluğun müdafiäsi üçün inzibati öhdäliklärlä älaqädar olan müddäalara bölünä bilär:

Yerindäcä müvafiq iş sistemlärinin müäyyän vä daxil edilmäsi;

Tabelikdä olanların öz öhdälikläri haqqında mälumatlanmasının vä onları därk etmäsinin tämin edilmäsi;

Näzarät vä hesabat sistemin tätbiqi;

Müvafiq seçim prosedurların tätbiqi;

Davranış kodeksinä vä nizam-intizama riayät edilmäsinin täsbit edilmäsi.

Täqdim olunan kodeks qeyri-paklıq vä korrupsiyaya aid olan ginayät qanunvericiliyindä täsdiq olunan äsas standartları äks etdirmäli vä möhkämländirmälidir; belä qanunvericilik öz növbäsindä kodeksin äsasını tämin edir. Başqa müddäalar dövlät väzifäli şäxsin xidmäti öhdäliklärini äks etdirir, onların pozulması intizam kodeksinä görä inzibati qanun pozulmasını täşkil edir. Eyni zamanda davranış kodeksinin funksiyası dövlät väzifäli şäxsini onun

paklığına xäläl gätirän vä väzifäsinin yaxşı icrasını pozan väziyyätlärdän qorumaqdadır.

Nümunä Kodeksinin layihäsi dövlät väzifäli şäxslär birliyi üçün däyişikliklärä yaxud däyişikliklärsiz qäbul edilmälidir. Hesab edilir ki, onun müddäaları rähbär prinsipläri täsdiq edär aä eyni zamanda deyilän väziyyätlärdä praktik icrasına gätirän kifayät qädär aydın mäslähätlä tämin edär. Lakin ümumi tätbiq nümunäsi kimi, o sälahiyyätlärä dair yalnız ümumi mätni ähatä edä bilär.

ÄLAVÄ:
KORRUPSİYA ÜZRÄ ÇOXSAHÄLİ QRUPUN (GMC) BÜROSU

1997-ci il Yanvar ayında keçirilmiş seçkilär näticäsindä Korrupsiya üzrä Çoxsahäli Qrupun (GMC) Büro üzvläri aşağıdakılardan ibarätdir:

Sädr: Cänab Vinsent A.QAETANO (Malta);

Sädr müavini: Cänab Lorenzo SALAZAR (İTALİYA);

Hüquqi Cäza Mäsäläläri Üzrä İşçi Qrupun (GMCP) Sädri: Cänab Li XUQES (Böyük Britaniya);

Mülki Hüquq Mäsäläläri Üzrä İşçi Qrupun (GMCC) Sädri: Cänab Xelmut NEUDORFER (Lixtenşteyn).

İnzibati vä Konstitusiya Hüququ Mäsäläläri Üzrä İşçi Qrupun (GMCA) Sädri: Xanım Nadya KONSTANTİNESKU (Rumıniya);

Üzvlär: Xanım Meri-Odil Baur (Fransa) vä Cänab Zeliyko Xorvatik (Xorvatiya).